# Gülümsəməyə çalışıram...

## Latviyanın milli dəyəri adlandırılan Raymond Pauls düşünür ki, musiqi heç zaman bezdirmir



**Bəstəkar Raymond Pauls 80 illik yubileyini qeyd edir. ”Biz pauza edə bilərik?” - deyə yubilyar telefon danışığında bir qədər ara verməyi xahiş edir: ”Mənə növbəti tortu gətirdilər. Artıq evim tortla doludur. Amma adamlar yenə gətirirlər. Bu, hörmət əlamətidir” - dedi. Maestro deyir ki, yubileyini dəbdəbəli banketlərlə qeyd etmək fikrində deyil. Bir sıra varlı həmkarları kimi görüntü xətrinə nəsə etmək istəmir. Hətta, ”yubiley” sözünə də dözmür.**

### BİR MİLYON AVRO

**- Son günlər sizin haqqınızda ”Latviyanın milli dəyəri” - deyə çox yazırlar. Latviya dövləti də sizə dəyər kimi yanaşır - ən yüksək təqaüd verir, güzəştlərə layiq görür.**

- Mənim hansısa xüsusi üstünlüyüm yoxdur. Tam səmimiyyətlə deyirəm, bu barədə heç düşünmürəm. Heç kimdən asılı olmadan işləməkdə davam edirəm.

**- 2011-ci ildə pullarınızı saxladığınız bank müflis oldu. Həmin pulların heç olmasa müəyyən bir qismini geri ala bildinizmi? Bildiyim qədər Latviya ”Krajbank”ında siz 1 milyon avroya qədər pul itirmisiniz?**

- Bu, çox xoşa gəlməyən bir hadisə idi. Mən müxtəlif adamlara müraciət etdim, amma heç kim kömək etmədi. Onlar həqiqətən böyük zəhmətlə qazanılan pullar idi. Mən onları hələ sovet dövründən yığırdım. Bu pullar hansısa bank fırıldaqlıqlarından qazanılmamışdı. Şükür Allaha ki, mən yaxşı qazanıram. Bu yolla xilas oldum. Mənə elə gəlir ki, daha o hadisəni xatırlamağa dəyməz. Milyonu cəsarətlə silmək olar. Axı bu bank bu kimi banklar arasında yeganə deyildi. Hətta, Amerika kimi supervarlı dövlətdə də bütöv bank sistemi laxladı. Bütün bunları necə qardaş adlandırmaq olar? Dələduzlarmı deyək? Bəlkə onlar oğurlamaq istəmirdilər, amma orada nəyisə birləşdirirdilər, nəticədə belə alındı - sistem çökdü. Məgər bu, bizdə birinci hadisədir? ”Pareks” bankına, ”Baltiya” bankına nə oldu? Orada da məgər mən az itirmişdim? Rusiyadan hər gün xəbərlər gəlir: bu bank və ya o biri bank müflis oldu. Təkcə mənmi bu vəziyyətdən qazana bilərdim? Mənə elə gəlir ki, ”Krajbank”ın başına gələn hadisə əsasən yerlilərin ucbatından baş verdi.

**- Siz keçən il özünüzün siyasətçilərdən ibarət ”qara siyahı”nızda ”Krajbank” işini araşdıran - Dombrovskiz, Aboltinya, Vilks, Reyrs kimi insanların adlarını səsləndirmisiniz. Onların əksəriyyəti bu gün də ölkəyə rəhbərlik edir. Siz öz münasibətinizi bu adamlara hansısa yolla başa saldınızmı? Onlar üçün konsert verməyə razılaşırsınızmı?**

- Mən onlardan necə qisas ala bilərəm? Onlar mənə tüpürmək istəyirdilər, onlar üçün çalıram, ya yox. Öz konsertlərimə rəsmi şəxsləri o qədər də dəvət etmirəm. İndi bizdə sərt sistem var - gəlmək istəyirsənsə bilet al. Bu, çox düzgün qaydadır. Teatrlar üçün çətindir. Onlar özləri qazanmalıdırlar - nə üçün onlara pulsuz dəvətnaməni sağasola atsınlar? Allah mənə imkan verib ki, bu gün ayaq üstə dururam. Harada və necə istəyirəmsə çala bilirəm. O hadisədən sonra bankla hər şeyə razılaşmağa məcbursan. Rusiya ”Qazprom”unun rəhbəri gəlir - Pauls! Rusiya Baş Dəmiryolunun rəhbəri gəlir və ona Rundalidə qəbul hazırlayırlar - yenə mən çalıram. Təəssüf ki, əksər artistlərin bu gün taleyi belədir. Onlar bütün bu korporotivlərdə çalmağa məcburdurlar. Başqa cür yaşaya bilməzsən. Teatrdan aldığın əməkhaqqı səni çox uzağa apara bilməz.



### MUSİQİ YAXINLAŞDIRIR

**- Ümumiyyətlə, ola bilərmi ki, işləməyəsiniz?**

- Ola bilər... amma mən buna can atmıram. Baxmayaraq ki, fevral ayında Moskvada böyük konsert verməyi və bununla da ifaçılıq fəaliyyətimi bitirməyi düşünürəm. Ona görə yalnız Riqada çalacağam.

**- Musiqi hələ sizi bezdirməyib ki?**

- Musiqi heç zaman bezdirmir. Çünki mən təkcə hansısa mahnını yazmıram, həmçinin müxtəlif janrlarla məşğul oluram. Mən pianoçu kimi çox çıxış edirəm. Bu yaxınlarda Corc Qerşvin və başqa klassiklərin əsərlərini ifa etdim. Yenidən uşaq xoru ilə işləməyə başlamışam. Hər gün ünvanıma dəvətlər gəlir, əlbəttə mən hamıya ”hə” deyə bilmərəm. Lazımı konsertlərdə isə iştirak etməyə çalışıram.

**- Siz parlaq melodiyaçısınız. Hiss edirsinizmi bu gün melodiya populyar musiqidən uzaqlaşır?**

- Melodizm artıq gedib. Ritm onu sıxışdırıb. İndi dəbə diskoteka, müəyyən formatlı kommersiya radiostansiyaları diktə edir. Əlbəttə, 70-80-ci illərdə tamamilə fərqli artistlər və melodiyalar vardı. Ancaq bununla bağlı həyəcan keçirməyin nə mənası var? Bir halda ki, melodizm tədricən qayıtmağa başlayıb. İnsanlar köhnə melodiyaları axtarır, yeni aranjirovkalar edirlər. Fikrimcə, yaxşı yazılan melodiya heç zaman itə bilməz.

**- Sizin ”Milyon qızıl gül” kimi?**

- Əvvəla, bu mahnıya da müxtəlif cür yanaşmalar var. Alla Puqaçovanın özünə də əvvəlcə yaxşı baxmırdılar. Mahnıdan 3 not və 2 akkordu hamı oxuyurdu. İndi də oxuyurlar. Bu yaxınlarda bir koreyalı müğənninin bu mahnıya gözəl bir nömrə hazırladığını gördüm. Mahnı o zaman bütün ittifaqda dillər əzbəri oldu. Alla Puqaçova ilə əməkdaşlığımız uzun olmasa da parlaq idi...

**- Bu gün musiqi əvvəlki kimi insanları birləşdirirmi?**

- Hə, biz musiqiçilərin arasında heç bir problem və münaqişə yoxdur.

**- Necə oldu ki, Valeri Leontevə, Kabzona və Qazmanova Latviyaya gəlməyi qadağan etdilər?**

- Bu mənim təşəbbüsüm deyildi. Mən artıq o barədə demişəm və bu mövzuya qayıtmaq istəmirəm. Əlbəttə, bunu etmək lazım deyildi. Mədəniyyət və musiqi əsaslı surətdə siyasətdən və sərhədlərdən uzaq olmalıdır.

**- ”Yeni dalğa” müsabiqəsi də Yurmaladan gedib. Bu, Latviya üçün itkidir?**

- Getdi... və öz mövcudluğunu Soçidə davam etdirir. Burda nə etmək olar, həyat belədir... Hərçənd mən festivalın Yurmaladan ”ətrini” itirməsinə heyfsilənirəm, amma atmosfer orada o qədər də pis deyil. Fikrimcə, hələ bizdə onu əvəz etmək üçün heç nə etməyiblər. Sadəcə, müxtəlif konsertlər təşkil edirlər ki, proqramdakı boşluğu doldura bilsinlər. Yenə də konsertlərə çoxlu ruslar gəlir. Özünüz afişaya baxsanız bunun şahidi olarsınız. Müasir Qərb super-ulduzlarını biz ala bilmirik. Mənim yaşımda olan və bura gəlməyə razılaşan təqaüdçüləri axtarırlar. Baxmayaraq ki, mən onlardan fərqli olaraq publikanı toplamaq gücündəyəm. Bu gün Latviya özü böyük miqyaslı festival təşkil etmək qabiliyyətində deyil - bizdə belə pul yoxdur. Digər tərəfdən, ”Yeni dalğa” tükənib. Mən bunu gözəl görürəm. O nə üçün yaranmışdı? Müsabiqə üçün, moda göstərməyə yox. Ancaq axırı nə oldu? Ümumiyyətlə, bütün dünyada festivallar ikinci plana keçir. Vaxtilə San-Remo festivalı bütün aləmi titrədirdi. İndi isə bu festival orta səviyyədədir. Mən gözəl bilirəm ki, indi nə etmək lazımdır, ancaq mənimlə hamı razılaşmır. Ona görə də məni sakit buraxın!

**- Bir sıra Latviya siyasətçiləri deyirlər ki, bu Rusiya müsabiqəsi Latviya mədəniyyətini korlayır.**

- Bunu deyən siyasətçilər çox azdır. Xoşbəxtlikdən mən özüm siyasətdən uzaqlaşmışam və o aləmə düşməməyə çalışıram.

**- Siz həmişə deyirsiniz ki, siyasət - çirkin işdir. Ancaq uzun müddət siz onunla məşğul olmusunuz.**

- Mən onunla necə məşğul olmuşam? Emosiyaların bilikdən daha çox olduğu zaman vardı. Mən də siyasi prosesə qoşuldum. Hətta, mədəniyyət naziri oldum. Sonra biz hər şeyi sakitləşdirdik. İndi başa düşürəm ki, bu, səhv idi. Mən peşəkar siyasətçi ola bilmədim. Şükür Allaha ki, belə oldu. Ancaq çox pisdir ki, bu gün bizdə peşəkar və ağıllı siyasətçilər azdır.

**- Sizcə, son illərdə Rusiyada latışlara münasibət çox dəyişib?**

- Mənim münasibətim dəyişməyib (gülümsəyir). Yaşadığım küçədə çoxlu afişalar vurulub. Onlar əsasən qastrola gələn rus aktyorlarının və müğənnilərin afişasıdır.

**- Bu gün Latviyada Sovet dövrü haqqında ”işğal” kimi danışırlar. Olsun ki, beynəlxalq hüquq nöqteyi-nəzərindən bu, doğrudur, amma siz hiss edirmisiniz ki, işğal olunmuş ərazidə yaşayırsınız?**

- Orada nə baş verdiyini həqiqətən aydınlaşdırmaq çətindir, ancaq ”işğal” sözünü sevmirəm. Əlbəttə, müxtəlif rejimlər olub və biz bilirik ki, latışlar necə iztirab çəkiblər. Geri qayıtmaq nəyə lazımdır?

**- Latviya artıq 12 ildir ki, Avropa İttifaqındadır. Ölkəniz Aİ-yə daxil olmaqla nə itirib və nə qazanıb?**

- Bir tərəfdən maliyyə köməyi hiss olunur və biz bu gün Avropaya vizasız gedibgələ bilirik. Ancaq bir çoxları bu məqamdan istifadə edib Latviyadan çıxıb getdilər. Əlbəttə, bu, çox pisdir.

**- Dünyadakı vəziyyət xoşunuza gəlirmi?**

- Yaxşı şeylər azdır... Lap belə deyərdim: get-gedə pisləşir. Biz hər gün yoldaşımla Euronws-u açır və baxırıq. Nə qədər insan öldürürlər. Bütün xəbərlər - yalnız bunun haqqındadır. Mənim nəvələrim Latviyada oxuyur və yaşayırlar. Mən onlara görə narahatam. Şərqdən başlayan bu xoşagəlməz hadisələr Avropaya çatdı. Latviya da çox uzaqda deyil.

### KOMEDİYALARI SEVİRƏM

**- Nə vaxtsa demisiniz ki, siz döyüş və qeyri-adi ”səfeh” filmlərə baxmağı xoşlayırsınız?**

- Hə, etiraf etməkdən utanmıram. Çox böyük həvəslə ”Fantomas” və yaxud ”Brilyant əl” filmlərinə baxıram. Bunlar məni sadəcə, şənləndirir. Köhnə filmlər mənim üçün çox maraqlıdır. Bəlkə mən köhnə dəbli adamam. Amma bəzən köhnə modellər yenilərdən qiymətli olur.

**- Yaşla əlaqədar optimizmi itirmirsiniz ki?**

- Ətrafda baş verənlərə çox kritik baxıram, ancaq gülümsəməyə çalışıram. Həyatda da, səhnədə də. Belə bir gündə məni yalnız xoşməramlı bir jurnalist xanımın ”Cənab Pauls, deyin görüm, necə olub ki, belə yaxşı qalmısınız” - sualı daha canlandırır. Əgər bilmək istəyirsinizsə, özüm də səbəbini bilmirəm. Təkcə onu bilirəm ki, mənim mahnılarım, melodiyalarım hələ çox adama lazımdır....

**Rusiya mətbuatından çevirdi**
**Təranə Məhərrəmova**